**KAZIM XODADUST**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı*

# X YÜZİLLİYİN GÖRKƏMLİ HƏKİMİ ƏXƏVEYNİ

Əbubəkr Rəbi ibn Əhməd əl-Əxəveyni əl-Buxarayinin adı Rəbi, atasının adı Əhməd və künyəsi Əbubəkr idi. Həmçinin onun künyəsini bəzi kitablarda "Əbu Həkim", "Əbubəkr" və Nizami Əruzi öz "Dörd məqalə" kitabında "Əxəveyn", "Əxəvi", "Əcəveyni" və "Axəri" kimi yazıblar. [1]

O, Buxara şəhərində anadan olub və həmən şəhərdə təhsil alıb, işləmişdir. Əl-Buxari adı onun doğulduğu yerin adından götürülüb. Buxara şəhəri Samanilər dövründə abad şəhər və İslam dünyasının elmi mərkəzlərindən biri hesab olunurdu və bir zaman da İbn Sina orada yaşamışdır.[2]

Onun Buxara şəhərindən olmağına şübhə yoxdur, bundan əlavə o özünün yazdığı "Hidayətul-Mutəəllimin fit-Tibb" kitabında "Əl-Buxari" kimi adlandırılıb. Kitabın müəllifi bir neçə kəlmə Buxara ləhcəsində söz işlətmiş və bir yerdə də Buxara ətrafında olan "Sepid-Maşe" su hövzəsindən söz açmışdır.[3] Əxəveyni və onun həyatı barəsində "Hidayət" kitabından daha ətraflı məlumat almaq mümkündür. O, ömrünün hamısını tibbə həsr etmiş və öz zamanının adlı-sanlı həkimi olmuşdu. O həmçinin Razi kimi adi xəstəxana həkimi işləmişdi və Malxulya xəstələrin müalicəsində olan xidmətlərinə görə əsəb xəstəlikləri həkimi kimi tanınmışdır.[1]

Əxəveyni tibb elmini daha çox Bəlx şəhərində mənimsəmiş və orada təbabətlə məşğul olub və ömrünün qalan hissəsində həmin yerin insanlarına xidmət göstərmişdir.[2]

Onun doğum və ölüm tarixi məlum deyil, amma bilirik ki, o, Razinin yetirmələrindən birinin şagirdi olub. Bu barədə özü yazır ki, "mən Əbülqasım Müqaneinin şagirdi olmuşam və o da Razinin şagirdi olub". [1] Burdan məlum olur ki, o, Razi məktəbinin yetirmələrindəndir. "Hidayət" kitabında Razidən "Ustad" və ya "Ustadımız" kimi söz açmışdır. Yəni Əxəveyninin tibbi elmi təcrübəsi Razinin tibbi biliyinə bərabər tutulur.[1] Onun ölüm tarixi təqribən hicri 373-cü ilə (miladi 980) təsadüf edir.[4] Bu barədə ən yaxşı izah "Hidayət" kitabında və onun müəlifi haqqında "İslam enkolopediyası"nın 7- ci cildinin 289-cü səhifəsində yazılıb. [5]

Müvəffəq ibn Əbu Mənsur Əli əl-Herəvi və Əbubəkr Əxəveyni X-XI əsrin məşhur həkimlərindəndirlər ki, onların hər ikisinin milli ədəbiyyat və tibb elminin inkişafında özünəməxsus yerləri olmuşdur. Hər ikisi eyni zamanda yaşayıb, fəaliyyət göstərmişlər. Onlar ilk həkimlərdir ki, ərəblərin İrana gəlişindən bir neçə əsr sonra tibb və əczaçılıqda yaranmış geriliyi aradan qaldırmış və bu sahədə iki qiymətli əsər yaratmışlar.

"Əl-Əbniyə əl-Haqaiqil ədviyyə", ya da "Rovzətul-uns və mənfəətun nəfs" Herəvinin tibbə aid fars dilində yazılmış ən qədim əlyazma kitabıdır. Bu kitabın bir nüsxəsi İranın məşhur şairi Əli ibn Əhməd Tusi Əsədinin xəttilə yazılıb. Əsərin 1054-cü ildə köçürülmüş surəti Vyana şəhərinin kitabxanasında mühafizə olunur.[6]

"Hidayət əl-Mütəəllimin fit-tibb" kitabı bu günə kimi gəlib əlimizə çatmış və tibb elmində olan ən qədim, çox qiymətli kitablardan sayılır. Bu kitab bir daha təsdiq edir ki, min il bundan əvvəl fars dili tibb elmində kitab yazmaq üçün kifayət qədər söz ehtiyatına malik olub və başqa sözlə tibb tarixi, farsca tibb elminin lüğəti,

xüsusi yazı üslubu və bəzi kəlmələrin tələffüzü cəhətdən olduqca əhəmiyyətə malikdir.[1] Fikrin sadə şəkildə şərhi və yığcamlılığa riayət etmə müəlifin yaşadığı dövrün əsas yazı tərzidir ki, bu kitabda da deyilən keyfiyyətlərə əməl olunmuşdur.

"Hidayət" kitabının dəqiq yazılma tarixi məlum deyil, çünki nə kitabın özündə, nə də başqa mənbələrdə bu barədə qeyd olunmamışdır. Tehran universitetinin professoru Müctəba Miynəvi "Hidayət" kitabının təqribi yazılma tarixini müəyyən etmək üçün onun müəllifinin vəfat dövrü ilə əlaqələndirərək bir sıra mülahizələr irəli sürmüşdür. Mənbələrin verdiyi məlumatdan[4] aşkar olmuşdur ki, Razi 920-ci ilin şəban ayının 5-i vəfat edib, Əxəveyninin ölüm tarix isə təqribən 980-ci ilə və "Hidayət" kitabının yazılma tarixi də bir neçə il əvvələ təsadüf edir. Beləliklə, "Hidayət" kitabının dəqiq yazılma tarixi məlum olmasa da, onun yazılma üslubu və digər xüsusiyyətləri açıq-aşkar göstərir ki, bu kitab X əsrdə yazılıb və fars dilində olan ən qədim nəsr əsərlərinin sıralarında yer tutur.

"Hidayət" kitabının adını bir neçə formada "Hidayəte-Əxəveyni", "Konaş Əxəveyn", "Ketabul-Hidayət fit-tibb", "Ketabe-Hidayət" kimi də yazırlar. Amma əldə olunmuş mənbələrdən bu nəticəyə gəlmək olar ki, bu əsər əsasən "Ketabe-Hidayət" kimi məşhurdur. Necə ki, "Dörd məqalə" və "Movcez Kəmi"nin müəllifləri də bu adla həmin kitabın adını çəkiblər.[6]

Kitabdan bəlli olur ki, bu əsər qiymətli bir mənbə kimi o zamanda tibb tələbləri üçün xəstəlikləri aşkar etməkdə və onların dərmanları müəyyənləşdirməkdə bələdçisi olmuşdur. Əxəveyni o dövrün ənənəsinin əksinə gedərək, necə ki, başqa alimlər və şairlər öz kitablarını padşahlara və hökmdarlara həsr edərdilər, ancaq o başqalarından fərqli olaraq, "Hidayət" kitabını öz oğlunun adına və onun istəyinə görə yazmışdır.[7] O istəyirdi ki, bu kitab ondan yadigar olaraq qalsın və həm də onun insanlara faydası olsun. Ümumiyyətlə, bu kitab, çoxlu təcrübələrin nəticəsi və dəqiq tibbi işlərin illər boyu olan bəhrəsidir ki, təcrübə və təhqiqi öz işinin əsası kimi qərar vermişdi.[8]

Əxəveyninin "Hidayət"dən başqa heç bir əsəri məlum deyil, amma o bu kitabda neçə yerdə "Gərabadini"dən söz açıb və kitabda olan mövcud işarələrdən belə görünür ki, onun "nəbz və anatomiya" haqqında kitab və məqalələri olub və "Gərabadini"nin təlifi barəsində də söhbət olmuşdu, amma bu iki kitabdan əlimizdə heç nə yoxdur və bilmirik sonuncu kitabı da o yazıb, ya yox? [1] Amma bir başqaları deyilər ki, Əxəveyninin tibbə dair "Daneşnameye-Meysərri" adı ilə bir kitabı vardır ki, 970-973-cü illərdə yazmışdır.[9]

"Hidayət" kitabı tibb alimlərinin həmişə diqqətini cəlb etmiş və Sabit ibn Qorrənin "Zəxirə", Razinin "Mənsur", Seyid İsmayıl Cürcaninin "Əğraz" kimi əsərləri ilə yanaşı tibb tələblərinə tədris olunurdu.[10]

Əxəveyni bu kitabda özündən əvvəlki həkimlərin fikirlərindən istifadə etmişdir. Məsələn: İbn Sərabyun, Yəhya ibn Masuyə, Razi və digər həkimlərin adlarını çəkib və ondan sonra tibbdə dərman bitkilərinin faydasından və bununla bağlı öz müşahidələrini, təcrübəsini qeyd etmişdir.

O dəqiqliklə xəstəliklərin adını və bəzi xəstəliklərin uğurlu, uğursuz müalicəsi, eyni zamanda əsərində dərmanlar, otlarla müalicənin əhəmiyyəti ilə bağlı Razidən öyrənməsi haqqında bəhs etmişdir. Bu da onu göstərir ki, Təbəri və Razi dövründən sonra tibb kitablarının meydana gəlməsində böyük tərəqqi yaranmışdı. Bunun da nəticəsi idi ki, həmin vaxtdan başlayaraq, tibb elminə maraq xeyli artmışdı. Necə ki, Nizami Əruzi Səmərqəndi "Dörd məqalə" əsərində yazaraq, Razinin "Mənsur", Sabit ibn Qorrənin "Zəxirə", Seyid İsmayıl Cürcaninin "Əğraz" kimi əsərləri hə-

kimlər üçün olduqca lazımlı mənbə hesab etmiş və uzun müddət dərs vəsaiti olmuşdur. Habelə, "Movcez Kəmi" kitabının müəllifi də "Hidayət" əsərini Əhməd Fərəcin "Kifayə", "Zəxireyi-Xarəzmşahi və Əğraz" kitablarının sıralarında hesab etmiş və Əxəveyninin fikirlərini adlı-sanlı həkimlərin rəyləri ilə bir çəkmiş və bir dəfə də onu "Ustade-Fazil (Fəzilətli ustad) Əbubəkir Əxəveyni" kimi yad etmişdi.[11] O dövrdə bu kitab tibb tələblərinə xəstəlikləri müəyyən etmək və onların qarşısını almaqdan ötrü hansı dərmanlardan istifadə edilməsində qiymətli bir mənbə idi.[3]

Kitabın yazılmasının əhəmiyyətli cəhətlərindən biri də budur ki, o dövrün fars ədəbi dilinə güclü təsiri olmuş və müxtəlif elm sahələrinə, eyni zamanda tibbə aid xeyli kitabların yaranmasına səbəb olmuşdur. Başqa bir tərəfdən bu və bunun kimi kitablar yalnız tibb tarixi baxımından deyil, bəlkə də fars nəsrinin inkişafına, xüsusən Mavəun-nəhr [Özbəkistan, Tacikistan və cənub-qərbi Qazaxıstan məntəqəsi (Transoxiana)] farscasının inkişafına çox böyük təkan vermişdir. Məhz bundan sonra fars dilinin qrammatikası və orfoqrafiyası xeyli zənginləşdir.[8]

O dövrün həkimlərinin və alimlərinin "Hidayət" kitabına diqqətinin əsas məqsədi bu kitabın özündə gərək axtarıla, çünki yuxarıda deyilmiş mənbədən başqa, ayrı bir kitabda "Hidayət"dən bir söz açılmamışdır. "Hidayət" kitabından bu nəticəyə gəlmək olar ki, Əxəveyni təbabət sahəsindəki uğurlarına bir mənbəyə görə 20 ilə, digər bir mənbəyə görə isə 30 ilə çatmışdır. Baxmayaraq ki, "Hidayət" kitabında Hippokrat, Galen, Hüneyn ibn İshaq əl-Kəndi, Sabit ibn Qorrə, İsa ibn Səhhar Bəxt, İbn Sərabyun, Yəhya ibn Masuyə, Əhruvən, Zəkəriyyə Razi kimi böyük təbiblər və "Epidemiya", "Fusul", "Nəvadiru təqəddəmətul-mərifəte-tərkibuleyn" və "Mənsuri" kimi tibbi kitablardan bəhs etmiş, özündən əvvəlki alimlərin təcrübəsindən faydalanmışdır. Doğrunu səhvdən seçəndən sonra, "Hidayət" kitabında bəzi yerlərdə istisna olmaqla, yalnız öz fikir və mülahizələrini irəli sürmüşdür.[1]

O əgər hanasısa bir xəstəliyin müalicəsində nailiyyət əldə etmirdisə, onu açıq etiraf edirdi.[1] Bəzi vaxtlar öz həmkarının və ya xəstəsinin adını da kitabında göstərmişdir. Əxəveyni həmçinin dərmanlardan az, və ya çox dərəcədə istifadə edilməsindən və müalicənin gedişindən də söz açmışdır.[1]

Diqqət çəkən başqa mövzu Əxəveyninin adlı-sanlı həkimlərin fikirləri haqda etdiyi mülahizələrdir. Kimlərin elmi, təcrübi fəaliyyəti özünü doğruldubsa, onları da qəbul edib. O hətta özündən əvvəl yaşamış Hüneyn ibn İshaq və İbn Serabyun kimi görkəmli həkimlərin rəy və fikirlərinə də tənqidi yanaşmışdır.

Əxəveyni bu işdə ustadı Əbulqasım Moğanei və onun ustadı Razini çox ehtiramla yad edibdir. Necə ki, "Daul-fil" fəslində Razinin hazırladığı bir dərman haqqında yazır ki, onun hazırladığı dərmanlardan heç bir təhlükə yoxdur.[1]

Əxəveyninin elmi diqqəti xüsusən o yerlərdə bilinir ki, tanınmış həkimlərin rəylərini xəstəliyin müalicəsində işlətməyib. Bu barədə fikirlərini əsaslandırarkən "İmtahan eləməmişəm" deyərmiş. Çünki o, dərmanları mütləq özü təcrübədən keçirməli idi.[1] "Hidayət" kitabının muəlifi o zamanın mənbələrindən istifadə edərkən, tibb elminin əsaslarını sadə dildə ifadə etmişdi.[1] Əxəveyninin xəstələrin müalicəsində və tibbi məsələlərdə təşəbbüsünün səciyyəsi olduqca əhəmiyyətə malikdir. O təqribən 10 növ dərman hazırlayıb və adlarını da "Hidayət" kitabında qeyd etmişdir. Misal üçün podaqra, oturaq sinirin iltihabı və qızdırmanı müalicə etmək üçün hazırladığı həbləri göstərmək olar.[1] Habelə, xəstələrin ağzına qida və dərman vermək üçün inəyin buynuzundan bir tibbi alət hazırlamışdı. Həmçinin o qızdırmaların növlərini tanımaq və müəyyən etmək üçün xətt və nöqtələrini müəyyən etmiş-

di.[1] O təxminən 5-6 əsr Uilyam Harveydən (1578-1657) qabaq qan dövranını kəşf etmişdir.[12]

Bütün bu söylənilənlərdən aydın olur ki, "Hidayət" kitabının müəllifi Əxəveyni özündən əvvəl yaşamış həkimlərin təcrübəsinə, o cümlədən Razinin tibbi baxışlarına və üsullarına əsaslanmışdır. Bu səbəbdəndir ki, sonrakı müəlliflər onu həmişə öz əsərlərində ehtiramla yad edib və "Hidayət" kitabının adını faydalı tibbi kitablar sırasında fəxrlə çəkmişlər.[1]

"Hidayət" kitabı İbn Sinanın "Qanun" kitabı yaranandan sonra da öz əhəmiyyətini qoruyub saxladı. Necə ki, sonrakı əsrlərdə də ondan dərs vəsaiti kimi istifadə olunurdu. VI yüzilliyin ortalarında Nizami Əruzi "Dörd məqalə" kitabının 4-cü hissəsində bu əsəri yüksək qiymətləndirmişdir.

XIII əsrdə Əbu Talıb Abdulla İbn Əbi Zeyd ət-Təbib adlı həkim öz dövrünün tibb kitablarının çoxlarını mütaliə etdikdən sonra "Hidayət" kitabı barəsində belə yazır: "Bu zəif bəndə çox vaxt xəstələrin müalicəsində bu kitaba müraciət etmişdir". Onun elmi səviyyəsi haqqında isə belə söyləyib: "Bu zəif bəndə təcrübə edib və həqiqətən, heç bir müalicədə səhv etməyib". Ona görədir ki, oğlu da atasının yolu ilə gedərək tibb elmilə məşğul olmuşdur. "Hidayət" kitabının geniş yayılmış nüsxələrindən birini digərləri ilə müqayisə etdikdə məlum olmuşdur ki, həmin nüsxə onun öz övladı üçün hazırladığı aşkarlanmışdır. Bu nüsxə Oksfordun "Bodeleyan" kitabxanasında saxlanılır.[1]

### *ƏDƏBİYYAT:*

1. Əxəveyni Ə. Hidayətul-Mutəəlimin fit-Tibb. Mətini C.Məşhəd: Ferdosi Universiteti. 1992, (2,6,7,8,10-12,15,93,246,248,561,562,677s.)
2. Ərdəlan M.R., Şüca M.Ə. Bimarihaye-Koliye-dər İrane Qurune Vosta dər Kitabe- Hidayətul-Mutəəlimin fit-Tibb. Jurnal: Nephrol Dial Transplant, 2007, No. 22, 3413–3421s.
3. Estəxri Ə.İ. Məsalek və Məmalek. Tərcümə: Əfşar İ. Tehran: Elmi və Fərhəngi, 1989,(120,124s.)
4. Minəvi M. Kitabhaye-taze. Jurnal:Yəğma. 1949, No.12,88s.
5. Musəvi Bocnudi M.K. Dayerətol-Moarefe-Bozorge-İslami. 7 cilddə, 3-cü c. 2002, 289s.
6. Nəcmabadi M. Tarixe-tibb dər İrane pəs əz İslam. Tehran: Nozhət,1987, (36, 634s.)
7. Vahedi H. Dərmane-Giyahi ba tibbe-Sünnəti. Məşhəd: Nəvənd, 2003,3s
8. Honər Ə.M. Təəmoli bər Hidayyət əl-Mutəəlimin fit- Tibb. Jurnal:Ayenye Pəjuheş. 1996, No. 41,62s.
9. Mesriyan Ə. Baz Negəriye-Karnameye-Biruni dər zəbane-Farsi. Jurnal: Nameye- Fərhəngestan, 2005, No.1(25), 205s.
10. Rəzəvi Borqəei S.H. Dərs name daneşcuyane-pezeşki kohən. Tehran:Əhle Qələm, 2004,1s.
11. Nizami Əruzi Ə. Çahar Məqale. Tərcümə: Moien.M. Tehran:Zəvvar, 1987, 110s.
12. Əxəveyni Ə. Hidayətul-Mutəəlimin fit-Tibb. Əfşar İ. Omid Salar M. Tehran: Bəhram, 2008, (60,162s.)

**КАЗЫМ ХОДАДУСТ**
***Институт Рукописей имени М.Физули при НАНА***

## ВЫДАЮЩИЙСЯ МЕДИК Х ВЕКА АХАВЕЙНИ

Абубекр аль-Ахавейни (… - 980) родился в городе Бухара. Он является автором произведения по медицине на персидском языке – «Хидаятуль-Мутааллимин фит-Тибб». Этот выдающийся медик был учеником известного в сфере медицины медика Рази. После того, как он изучил богатый опыт живших до него медиков, он представил свои личные сведения по медицине в книге «Хидаят». В средние века эта книга была наиболее часто используемым в

сфере медицины ценным источником, приносящим полъзу в исцелении болезней и приготовлении лекарств. В данной статъе кратко излагается значимостъ книги «Хидаят».

**KAZIM KHODADUST**
***Institute of Manuscripts after M.Fuzuli under NASA***

## OUTSTANDING DOCTOR OF X CENTURY AKHAVAYNI

Abubakr al-Akhavayni (... – 980) was born in the city of Bukhara. He is the author of the work on medicine in Persian "Hidayatul-Mutaallimin fit-Tibb". This outstanding doctor was the student of famous in medical sphere medical man Razi. After studying the extensive experience of medical men living before him, he presented his own medical thoughts in the book "Hidayat". In the Middle Ages this book mostly used in medical sphere was valuable source useful in the treatment of diseases and preparation of medicines. In this article the importance of the book "Hidayat" is briefly related.

***Rəyçilər: t.e.n.T.Həsənzadə, f.e.d.N.M.Mikayılov.***
***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının 09 aprel 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***